

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 229 (21.890)

2 dekabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 1-də Bakıda "Asiyanın Qəlbi – İstanbul Prosesi" çərçivəsində "Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda 7-ci nazirlər konfransı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani konfransda iştirak ediblər.

* * *

Prezident İlham Əliyev dekabrın 1-də İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib.

* * *

Dövlətimizin başçısı dekabrın 1-də Estoniya Respublikasının xarici işlər naziri Sven Mikseri qəbul edib.

* * *

Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə təkbətək görüşü olub.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədlərinin imzalanması mərasimi olub.




## Naxçıvanda sosial qayğıya ehtiyacı olan şəxslərə minik avtomobilləri təqdim olunub





Dekabrın 1-də sağlamlıq imkanları məhdud üç Azərbaycan Vətən Müharibəsi iştirakçısına və hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış bir nəfərə "NAZ-Lifan-320" markalı minik avtomobilləri təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək demişdir ki, muxtar respublikada xüsusi qayğıya ehtiyacı olanlara sosial xidmətlərin göstərilməsi və reabilitasiyası diqqət mərkəzindədir. Bu günədək muxtar respublikada müvafiq kateqoriyadan olan sağlamlıq imkanları məhdud 456 şəxsə minik avtomobili verilmiş, 211 müharibə əlili və şəhid ailəsi mənzil və fərdi yaşayış evləri ilə təmin olunmuşdur. Bu ilin ötən dövründə isə sağlamlıq imkanları məhdud şəxslər müxtəlif sanatoriya və pansionatlara göndərişlərlə təmin olunmuş, bərpa mərkəzlərində müalicələri təşkil edilmişdir. Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin təhsili, məşğulluğu və yaradıcılıq potensiallarının aşkar edilməsi də diqqət mərkəzindədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Bu gün Azərbaycan torpaqlarının qorunması zamanı sağlamlığını itirmiş şəxslərə dövlət qayğısı ilə minik avtomobilləri verilir. Avtomobillə təmin olunan şəxslərin xidməti vəzifələrini layiqincə yerinə yetirməsi Vətənə xidmətin nümunəsidir. Eyni zamanda Vətən qarşısında xidməti olanlara avtomobillərin təqdim edilməsi dövlətimizin bu kateqoriyadan olan insanlara göstərdiyi qayğının daha bir ifadəsidir. Vətənə layiqincə xidmət etmək və bu xidmətin dövlət tərəfindən qiymətləndirilməsi isə Vətənin bütövlüyünə, gələcəyinə xidmət edir. Bu gün xidməti borclarını layiqincə yerinə yetirən insanlara avtomobillərin təqdim olunması həm də onların hərəkət imkanlarını yaxşılaşdıracaqdır.

Ali Məclisin Sədri avtomobillə təmin olunanları təbrik etmiş, Vətən qarşısında xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə onlara təşəkkürünü bildirmişdir.

Sonra Ali Məclisin Sədri avtomobillərin açarlarını təqdim etmişdir.

Hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış Röya Cəfərov çıxış edərək demişdir: Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Bunu gündəlik həyatımızda hər an hiss edirik. Vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Müharibə əlilləri, şəhid ailələri mənzillə təmin olunur, onlara minik avtomobilləri verilir, müalicələrinə köməklik göstərilir. Minik avtomobili ilə təmin olunacağımı eşidəndə çox sevindim. Bu qayğıya görə bütün müharibə iştirakçıları adından minnətdarlığımı bildirirəm.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Mehmanxana təsərrüfatının turizmin inkişafında mühüm töhfəsi var

***Mehmanxana təsərrüfatı turizm sənayesinin mühüm tərkib hissəsidir. Belə ki, burada turistlərə lazım olan əsas yerləşmə xidmətləri göstərilir. Bu baxımdan Naxçıvandakı mehmanxanalarda yaradılmış komfortlu şərait regiondakı turizm və qonaqpərvərlik xidmətlərinin yüksək səviyyəsindən xəbər verir. Bu otellərdə göstərilən xidmətlər, ümumilikdə, regionda turizmin inkişafına mühüm təsir göstərir.***

Naxçıvanın yüksək turizm cazibədarlığı vardır. Bunu regiona səyahət edən turistlərin sayının artmasında görmək mümkündür. Bundan başqa, turizm region iqtisadiyyatının digər sahələrinə də güclü təsir etməkdədir. Bu baxımdan muxtar respublikamıza səfər edən turistlərə göstərilən xidmətlər haqqında danışdıqda ilk olaraq zərf xidmətləri nəzərdə tutulur ki, burada da mehmanxana xidmətləri öndə gəlir. Çünki mehmanxanalar olmasa, turizmin inkişafı praktik olaraq mümkün deyil.

Hazırda muxtar respublikamızda 21 mehmanxana və mehmanxanatipli müəssisə vardır. Bu mehmanxanaların birdəfəlik tutumu 1500 nəfərə yaxındır. Naxçıvana səfər edən turistlər öz yüksək səviyyəli komfort şəraitləri ilə seçilən "Duzdağ", "Təbriz", "Qrand Naxçıvan", "Avtovağzal" otellərini, habelə yeni istifadəyə verilmiş Ağbulaq İstirahət Kompleksini yaxşı tanıyırlar. Belə turistlərin ölkə mənşəyinə baxdıqda isə Almaniyadan Yaponiyaya, Çindən Türkiyəyə qədər onlarla ölkəni görməkdəyik.



Muxtar respublikadakı mehmanxanalarda yataq servislərindən əlavə, geniş çeşiddə digər xidmətlər də göstərilir. Elə bu səbəbdəndir ki, cari ildə Naxçıvandakı otellərdə gecələyən turistlərin sayında artım müşahidə olunur. Belə ki, əldə etdiyimiz məlumata əsasən bu yay mövsümündə otellərin doluluğu bəzi aylar üzrə 68 faizə çatıb. Burada göstərilən xidmətlərin keyfiyyətinin yüksək olması üçün kadrların seçiminə ciddi fikir verilir. Mehmanxanalarda çalışan 250-yə yaxın xidməti personal müasir turizmin tələblərindən, komfort standartlarından məlumatlı olan işçilərdir. Artıq dünya praktikasında olduğu kimi, Naxçıvandakı mehmanxanalarda da turistlər üçün canlı musiqilərdən konfrans, şəhərdaxili və şəhərətrafı ekskursiyalaradək hər cür xidmətlər təşkil olunur. Qeyd edək ki, turistlərin rahatlığı üçün nəzərdə tutulmuş bu xidmətlər həm də otellərin gəlirini artırır.

Turizm artıq muxtar respublika iqtisadiyyatının mühüm bir sahəsinə çevrilməkdədir. Belə ki, cari ilin yanvar-oktyabr aylarında muxtar respublikamıza 339 min nəfərə yaxın turist gəlib. Bu isə 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur. Naxçıvanın bənzərsiz turizm ehtiyatlarından istifadə etmək, onları maraqlandıran bir çox obyektlərlə rahat şəkildə tanış olmaq üçün görülən bütün tədbirlər öz bəhrəsini verməkdədir. Muxtar respublikaya səyahət edən turistlər buradakı zəngin təbii və tarixi-mədəni ehtiyatlarla yanaşı, həm də onlar üçün hər cür rahatlığın yaradıldığı mehmanxanaların xidmətlərindən də istifadə edirlər. Bu da bir iqtisadi sahə kimi turizmin region iqtisadiyyatına olan təsirini gücləndirir.

**✍ Əli CABBAROV**

*Təbii sərvətlərimiz*

# Naxçıvanda duz istehsalı: keçmişdən bu günümüzə

*Duz istehsalı Naxçıvanın tarixən özünəməxsus məşğulluq sahələrindən biri olub. “Naxçıvanda Duz Muzeyinin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamında deyilir:* ***“Bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuşdur. Bu isə 5 min illik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir”.***





Mənbələrdə qeyd olunur ki, Cəhri, Şıxmahmud və Sust kəndlərinin əhalisi əsrlər boyu öz yaşayışlarını Duzdağdakı mədənlərdən duz çıxarıb satmaqla təmin ediblər. Yataqların qədim dövrlərdən bəri istismarı XIX əsrin əvvəlində tərtib olunmuş mənbələrdən birində qeyd olunduğu kimi, buradakı “duz dayaqlarla möhkəmləndirilmiş enli horizontal keçidlərin” qalıqlarından da görünür. Aparılmış arxeoloji tədqiqatlar Duzdağda mədənçilik işinin Eneolit dövründən başlandığını təsdiq etməklə yanaşı, artıq eradan əvvəl IV minillikdə bu prosesin daha geniş miqyas aldığını da göstərir. Əməkdar incəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradov “Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri)” adlı monoqrafiyasında Naxçıvanda duzun çıxarılması prosesi haqqında İ.Şopenin müfəssəl məlumat verdiyini qeyd edir. Belə ki, İ.Şopenin qeydlərinə görə, mədənçilər əvvəlcə duz dağının üst təbəqəsindən duz layına çatana qədər eni bir arşın olan quyu qazırdılar. Duz layı aşkar olunduğu yerdə bir neçə işçinin eyni vaxtda işləməsi üçün kiçik meydança düzəldilir və bundan sonra mədənin istismarına başlanılırdı. Duz çıxarılması zamanı əsas vasitə kimi dəmir burğudan və barıtdan istifadə edilirdi. Uzunluğu 13-14 verşok olan dəmir burğu vasitəsilə eni bir düym, dərinliyi isə 9-10 verşok olan dəliklər açılır və onun içərisi barıtla doldurularaq partladılırdı. Hər bir işçi gün ərzində çətinlik çəkmədən 2-4 dəlik açıb partlayış törədə bilirdi. Hər partlayış nəticəsində duz layından böyük və kiçik qəlpələr şəklində 5 puddan 100 puda qədər duz qoparılırdı. Bu partlayışlar həm də qonşu laylarda yeni çatların əmələ gəlməsinə və böyük qəlpələrin laydan qopmasına gətirib çıxarırdı. Belə qayda ilə aparılan işlər nəticəsində duz dağında uzunluğu bir neçə metrə çatan duz mağarası əmələ gəlirdi. Mağaranın içərisində işıqlanmanı təmin etmək üçün yanlarda böyük diametrli deşiklər açılırdı.

Duz mədənlərində işin davametmə müddəti də maraq doğurur. Belə ki, mənbələrdə də göstərildiyi kimi, xanlıqlar dövründə duz istehsalı mövsümi xarakter daşıyırdı. Duzun əsas alıcısı isə Qarabağda, Şərurda, Dərələyəzdə, Naxçıvan mahalında və Makuda yarımköçəri həyat tərzi keçirən və maldarlıqla məşğul olan əhali idi. İ.Şopenə görə, may ayından başlayaraq duz mədənlərinin ətrafında boz, susuz çöllər duz almaq üçün gəlib növbə gözləyən karvanlarla dolu olurdu. Mart-aprel və oktyabr-noyabr aylarında mədənlərdə çalışan 4-8 nəfərlik işçi qrupu, təxminən, 20 min pud duz istehsal edirdi. Alıcıları itirməmək üçün işçilər bu müddət ərzində olduqca intensiv işləyərək hər il orta hesabla 100 min pud duz çıxarırdılar. Hətta Naxçıvan xanlığının Rusiyanın tərkibinə qatılmasından sonra duzun illik istehsal gücü 120 min puda çatmışdı.

Tədqiqatçı İ.Şopen yazır ki, Naxçıvanda duz mədənlərinin istismarı uzun müddət iltizam hüququ əsasında həyata keçirilmişdir. Müəllifə görə, bu mədənlər XVIII əsrin ortalarında Naxçıvan xanları tərəfindən hər il 30, 40, 50, 100, 150 və 300 tümənə iltizama verilirdi. İltizamçılar bunun müqabilində həm də Naxçıvan xanlarını duzla pulsuz təmin etməyi öhdələrinə götürürdülər. İltizamçı istehsal edilmiş duzun hər batmanını gümüş pulla 3 qəpiyə satır, əldə etdiyi gəlirin 2/3 hissəsini özünə götürüb 1/3 hissəsini mədənçilərə verirdi.

Tədqiqatçı Vidadi Muradov monoqrafiyasında qeyd edir ki, Naxçıvanın çar Rusiyası tərəfindən işğalından sonra çar hökuməti əsas diqqəti duz mədənlərindən əldə edilən gəlirin artırılmasına yönəltdi. Buna görə də duzun satış qiyməti hər batmana görə 9 qəpikdən 10 qəpiyə qaldırılmışdı. Çar hökuməti iltizam qaydalarını da dəyişdirmişdi. Belə ki, XIX əsrin 30-cu illərində mədənlər nisbətən uzun müddətə – 3-4 il müddətində iltizama verilirdi. Burada diqqət ediləsi əsas məqamlardan biri də xəzinənin duz mədənlərindən əldə etdiyi illik gəlirin durmadan artması idi. 1829-cu ildə xəzinənin bu sahədən əldə etdiyi gəlir 1000 tümən təşkil etmişdisə, 1830-1833-cü illərdə 13200, 1833-36-cı illərdə isə 18 min rubla bərabər olmuşdu. Hətta 1836-cı ilin iyununda başlayan yeni 4 illik müddət üçün iltizamçı xəzinəyə gümüş pulla 28 min 840 rubl, hər il üçün 7220 rubl pul ödəməyi öhdəsinə götürmüşdür. Maraqlıdır ki, 1841-1851-ci illəri əhatə etmiş belə idarəçilik dövründə də xəzinənin gəliri artmaqda davam edərək, orta hesabla 8907 rubla bərabər olmuşdu. Təbii ki, xəzinənin duzdan gələn gəlirlərinin artmasında əsas səbəb duz istehsalının ilbəil genişlənməsi idi.

Monoqrafiyada oxuyuruq ki, Naxçıvan duz mədənlərində iltizam sistemi XIX əsrin ikinci yarısı, XX əsrin ilk illərinə qədər davam etmişdir. Lakin burada iltizam sistemi duzun istehsalına yox, ancaq satışına aid edilirdi. Belə ki, iltizamçılar hər mövsümün başlanğıcında mədən rəislərinə alacaqları duzun həcmi barədə tələbnamə verir və hazır daşduzun hər pudunu 2, xırda duzun hər pudunu isə 1 qəpikdən alıb həm mədən rayonunda, həm də digər yerlərdə satırdılar.

Vidadi Muradov qeyd edir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanın duz istehsalında yeni mərhələ başlandı. Mənbələrə əsaslanan alim bildirir ki, Naxçıvan duz mədənlərinin istismarı dövlətin əlində cəmləşmişdi. Duza tələbatın artmasını nəzərə alan hökumət həmin dövrdə Sust və Cənnət kəndləri yaxınlığında daha iki mədənin istismarına başlamışdı. Yalnız öz gücü ilə tələbatın öhdəsindən gələ bilməyən hökumət bu işə ayrı-ayrı sahibkarları da cəlb etməyə məcbur olmuşdu. Belə ki, 1907-ci ildən Sust mədənlərinin istismarı ilə “Kəlbəlixanov qardaşları və K” şirkəti də məşğul olmağa başlamışdı. Lakin çar hökuməti yerli şirkətlərə qısqanclıqla yanaşır və hər vasitə ilə onların fəaliyyətini məhdudlaşdırırdı. “Kəlbəlixanov qardaşları və K” şirkətinin başçısı Hacı Xudadat xanın çar hökumətinə Sust mədənlərindən duz istehsalını 200 min puda çatdırmağa icazə verilməsi haqqındakı müraciətləri uzun müddət rədd edilmiş və yalnız bir neçə ildən sonra buna icazə verilmişdi. Çar hökumətinin yerli şirkətlərə qoyduğu qadağa ləğv edildikdən sonra duz hasilatının həcmi xeyli artmışdı. Təkcə “Kəlbəlixanov qardaşları və K” şirkətinin 1911-ci ildə Sust mədənlərindən hasil etdiyi duzun həcmi 304,261 pud təşkil etmişdi. Bu sahədə aparılan araşdırmalar onu göstərir ki, 1911-1913-cü illərdə Naxçıvanda duz istehsalı özünün ən yüksək səviyyəsinə çatmışdı. Təxmini hesablamalara görə, duz mədənlərindən ildə 600-800 min pud duz istehsal edilirdi. Bununla belə, duza olan tələbatı tam ödəmək mümkün olmurdu. Təkcə onu qeyd etmək kifayətdir ki, 1912-ci ildə Naxçıvanda fəaliyyət göstərən duz mədənlərində istehsal edilən 9 min ton duz Cənubi Qafqazın duza olan tələbatından 4,2 dəfə az idi. Ancaq 1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması bu səviyyəni də saxlamağa imkan verməmişdi.

Sovetlər Birliyi dövründə isə Naxçıvanda duz istehsalı əvvəlki dövrlərlə müqayisədə sənayenin yeni imkanlarından istifadə edilməsinə görə seçilirdi. Lakin xalqımız müstəqilliyimizin bərpasından sonra bu yeraltı sərvətin əsl sahibinə çevrildi. Son dövrlərdə isə “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması, müəssisənin yeni texnoloji avadanlıqlarla təmin edilməsi muxtar respublikada duz istehsalının yeni mərhələyə qədəm qoymasına imkan vermişdir. İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir. Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir. Gündəlik istehsal gücü 40-45 ton daşduz, 20-25 ton isə üyüdülmüş duz olan “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətində 18 çeşiddə duz istehsal olunur və bu məhsullardan məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Məhsullar “Duzdağ” əmtəə nişanı ilə satışa çıxarılır. Müəssisədən aldığımız məlumata görə, ötən il burada 5391 ton daşduz və 2206 ton üyüdülmüş duz istehsal edilib. Müəssisə tərəfindən 2340 ton daşduz və 2129 ton üyüdülmüş duz satılıb. Cari ilin ilk 10 ayında isə 4189,4 ton daşduz, 1995,5 ton üyüdülmüş duz istehsal olunub. İstehsal olunan 1467,3 ton daşduz, 2164,9 ton isə üyüdülmüş duz satılıb.

*Beləliklə, dünyanın ən qədim mədənlərindən olan Duzdağ yataqlarından çıxarılan duz min illər əvvəl olduğu kimi, bu gün də süfrələrimizin əvəzolunmaz nemətidir.*

Səbuhi HƏSƏNOV

***Son illərdə muxtar respublikada meyvə-tərəvəz istehsalına diqqət artırılıb, qış aylarında əhalini faraş tərəvəzlə təmin etmək üçün bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. Sahibkarlara göstərilən dövlət dəstəyi nəticəsində hazırda Naxçıvan şəhərində və rayonlarda müasir istixanalar, soyuducu anbarlar yaradılıb, məhsul bolluğu təmin edilib.***

*İstehsal müəssisələri*

# “Naxçıvan bağları” keyfiyyətli məhsulları ilə istehlakçıların rəğbətini qazanıb




Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri sırasında “Naxçıvan bağları” tərəvəz məhsulları istilik kompleksi xüsusi yerə və çəkiyə malikdir. 2013-cü ilin mart ayında 10 min kvadratmetr, may ayında isə 1500 kvadratmetr sahəsi olan yeni istixana kompleksi fəaliyyətə başlayıb. Burada Hollandiya və Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılıb, anbarlar, qazanxana, yeməkxana və işçilər üçün otaqlar yaradılıb, istixana üçün yeni kənd təsərrüfatı texnikaları alınıb. Ümumilikdə, yeni istixana kompleksinin tikintisinə və müasir texnoloji avadanlıqların alınmasına 2 milyon 100 min manat vəsait sərf olunub. Bunun da 600 min manatı daxili imkanlar hesabına ödənilib. İstixana kompleksində Zirə, Tovuz sortu olan pomidor yetişdirilir. Məhsullar sifarişə uyğun, nəfis tərtibatla bəzədilmiş 7 kiloqramlıq karton taralarda topdansatış bazalarında, 250-500 qramlıq və 1 kiloqramlıq plastik taralarda isə pərakəndə satış mağazalarında Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış “Naxçıvan bağları” əmtəə nişanı ilə satışa çıxarılır. Bu, muxtar respublikada həmin məhsula olan tələbatın müəyyən bir hissəsini ödəyir.

Ötən illər ərzində “Naxçıvan bağları” tərəvəz məhsulları istixana kompleksi fəaliyyətini genişləndirib. Belə ki, 2014-cü il dekabrın 3-də Kəngərli rayonunun Böyükdüz kəndində yeni istixana kompleksi istifadəyə verilib. İllik istehsal gücü min ton olan istixana kompleksinin fəaliyyətə başlaması qış aylarında daxili bazarın tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaradıb. Yay mövsümündə də daxili bazarın tərəvəz məhsulları ilə təmin olunması diqqət mərkəzində saxlanılır.

Kompleksin daxilindəki ayrı-ayrı bölmələrdə ümumi uzunluğu 26 min 600 metr olan 80 santimetrdən 1 metrədək dərinlikdə drenaj xətləri çəkilib, xüsusi örtükləri olan süzgəcli borular salınıb, mərkəzi xəttə birləşdirilib. Bu da yay mövsümündə suvarma zamanı torpağın tərkibində olan artıq suyun axıdılmasına, şoranlaşmanın qarşısının alınmasına, qış mövsümündə isə isti hava ilə şitillərin vegetasiya dövrünün normal keçməsinə imkan verir. İstixana kompleksində avtomatik rejimdə işləyən iqlim-nəzarət sistemləri, isitmə və havalandırma avadanlıqları quraşdırılıb. Türkiyənin “Alarko” şirkətindən alınmış 6 ədəd sobanın 3-ü təbii qazla, 3-ü isə həm təbii qaz, həm də dizel yanacağı ilə işləyir ki, bu da müəssisəni fasiləsiz istiliklə təmin edir. İstixana kompleksinin gündəlik tələbatı nəzərə alınaraq, hər birinin tutumu 225 ton olan 4 yerüstü qapalı hovuz quraşdırılıb. Bu, su xəttində hər hansı bir nasazlıq yaranarkən fasiləsiz su ilə təminatda mühüm rol oynayır. Burada su təchizatı mərkəzi idarəetmə sistemi ilə təmin olunmuş avadanlıqlar vasitəsilə aparılır.

İstixanada müasir kənd təsərrüfatı texnikalarından istifadə, yeni texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunmasında və əhalinin keyfiyyətli məhsullarla təminatında əhəmiyyətli rol oynayır. Kompleksdə becərmə tədbirlərində üzvi gübrələrdən istifadə edilir, tərəvəz kollarının tozlanması xüsusi arı ailələri vasitəsilə aparılır. Bu, istehsal olunan məhsulların xaricdən idxal edilən eyniadlı məhsullardan xeyli keyfiyyətli olmasına şərait yaradır. İstixana kompleksinin istehsal etdiyi tərəvəz məhsullarının qonşu ölkələrə ixracı da planlaşdırılır.

Cari ilin yayında istixana kompleksinin ətrafında yerləşən 10 hektar ərazidə pomidor, badımcan, bibər, qovun, qarpız əkilib. Yetişdirilən məhsul kənd təsərrüfatı məhsullarının satışı yarmarkasında münasib qiymətə alıcılara satılır. Hazırda istixana kompleksində məhsul yığımına başlanıb. Gələcəkdə kompleksin sahəsinin genişləndirilməsi və digər tərəvəz məhsullarının yetişdirilməsi də nəzərdə tutulur.

Kompleksdə təhlükəsizlik kameraları quraşdırılmış, iş otaqları və yeməkxana istifadəyə verilmişdir. Böyükdüz istixana kompleksinin daxili bazarın yüksəkkeyfiyyətli tərəvəz məhsulları ilə təminatında, eləcə də əhalinin məşğulluğunda mühüm payı var. Burada 50 nəfər işlə təmin edilib ki, onların da əksəriyyəti Böyükdüz kəndinin sakinidir.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin icrası istiqamətində görülən işlərin uğurlu bəhrələrini həm də “Naxçıvan bağları” tərəvəz məhsulları istilik kompleksinin timsalında aydın görmək olur.

Ramiyyə ƏKBƏROVA

*3 dekabr Beynəlxalq Əlillər Günüdür*

# Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərə davamlı dövlət qayğısı göstərilir

***Məhdud fiziki imkanlı şəxslərin hüquqlarının qorunmasına, onların sosial müdafiəsinin təmin olunmasına ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının 14 oktyabr 1992-ci il tarixli qərarı ilə 3 dekabr Beynəlxalq Əlillər Günü kimi təsis edilib.***

Ölkəmizdə məhdud fiziki imkanlı şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə əsası qoyulan bu siyasət hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu sahənin qanunvericilik bazası təkmilləşdirilir. Cəmiyyətin ümumi inkişaf prosesindən irəli gələn yeniləşmə, təkmilləşmə tendensiyasına müvafiq olaraq bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkanlar yaradan qanunlar qəbul edilir, eyni zamanda onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır.

Muxtar respublikada sosial-iqtisadi sahədə həyata keçirilən davamlı islahatlar sakinlərin həyat şəraitinin yaxşılaşması, rifahının yüksəlməsi ilə nəticələnmişdir. Müvafiq kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb. Sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədilə hər ay təqaüd, aylıq və birdəfəlik sosial müavinətlər ödənilir. Hazırda muxtar respublikada 7121 əlilə sosial müavinət, 233 şəhid ailəsinə, 1644 müharibə əlilinə və birinci qrup ümumi səbəbdən əlillərə təqaüdlər ödənilir.

Hazırda sağlamlıq imkanları məhdud 35 şəxsə evlərində sosial-məişət xidməti göstərilir, onların zəruri sosial problemlərinin həlli və vaxtaşırı tibbi müayinədən keçmələri təmin edilir.

Məhdud fiziki imkanlı şəxslərin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin güclənməsinə əsaslı zəmin yaradır. Cari ilin 10 ayı ərzində əmək bazarının tələblərinə uyğun təşkil olunan müvafiq peşə kurslarına sağlamlıq imkanları məhdud 15 nəfər cəlb edilmiş, bu kateqoriyadan olan 82 şəxs münasib işlə təmin edilmişdir. Sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluqlarının təmin edilməsi məqsədilə 39 nəfər sosial xarakterli haqqıödənilən ictimai işlərə cəlb olunmuş, 16 nəfərə isə fərdi







ailə təsərrüfatlarını formalaşdırmaq üçün köməklik göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası isə bu kateqoriyadan olan uşaqların təhsil almasına, onların reabilitasiyasına, cəmiyyətə daha fəal inteqrasiyasına yeni imkanlar yaradır. Hazırda bu qəbildən olan uşaqlardan 57-si məktəbəqədər təhsil müəssisələrinə, 931-i ümumtəhsil məktəblərinə, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən 24 uşaq distant tədrisə cəlb olunmuşdur. Tədrisə cəlb edilmiş aztəminatlı sağlamlıq imkanları məhdud 281 şagird məktəbli geyimi və ləvazimatları, eləcə də qış geyimi ilə təmin olunmuşdur. Yay tətili günlərində sağlamlıq imkanları məhdud məktəbli uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə tərtib edilmiş tədbirlər planına uyğun olaraq uşaqların Naxçıvan şəhərində muzeylərə, tarix-memarlıq abidələrinə, istehsal və emal müəssisələrinə ekskursiyaları təşkil olunmuş, təhsildə fərqlənən məktəbli uşaqlar Ağbulaq İstirahət Mərkəzinə göndərilmiş, Naxçıvan Dövlət Kukla Teatrında tamaşalar nümayiş etdirilmiş, Naxçıvan şəhərindəki Əyləncə və İstirahət Mərkəzində istirahətləri təşkil edilmiş, onlar arasında “Tullantıdan əl işi“ adlı sərgi-müsabiqə keçirilmişdir. Dövlət proqramının icrasına uyğun olaraq uşaqlar arasında şeir müsabiqəsi, “Yurdumuzu tanıyaq” adlı bilik müsabiqəsi, eşitmə qabiliyyəti məhdud uşaqlar arasında yazı müsabiqəsi keçirilmiş, bu qəbildən olan uşaqların iştirakı ilə 4 kiçikhəcmli videokitab hazırlanmış, Bakı şəhərindən dəvət olunmuş eşitmə qabiliyyəti məhdud şəxslərin tədrisi ilə məşğul olan müəllimin müşayiəti ilə uşaqların tarixi abidələrə və muzeylərə ziyarətləri təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən nitq məhdudiyyəti olan, zehni inkişafın ləngiməsi, autizm və daun sindromlu uşaqlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirmək məqsədilə yeni tədris ilində Şərur və Ordubad rayonlarında Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölməsinin filialları təşkil edilmişdir.

Məhdud fiziki imkanlıların istedadlarının üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin inkişafı məqsədilə də tədbirlər təşkil olunur. Belə ki, onlar arasında şeir, bilik, mütaliə, brayl yazı, rəsm və əl işləri üzrə müsabiqələr təşkil edilir, onların iştirakı ilə hazırlanan tamaşa nümayiş etdirilir, idmanın müxtəlif növləri üzrə yarışlar keçirilir. Sağlamlıq imkanları məhdud ifaçılardan ibarət “İnam” musiqi qrupu mütəmadi olaraq bayram tədbirlərində, eyni zamanda əsgərlər qarşısında konsert proqramı ilə çıxış edir.

Əlamətdar günlərdə məhdud fiziki imkanlı şəxslərin iştirakı ilə tədbirlərin həyata keçirilməsi ənənə halını alıbdır. Bu il muxtar respublika üzrə sağlamlıq imkanları məhdud 1630 şəxslə görüşlər keçirilmiş və onlara sovqatlar verilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisində avqustun 26-da 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar 68 nəfər tənha ahıl və əlil vətəndaşa ehtiyaclarına uyğun zəruri ləvazimatlar təqdim edilmiş və məhdud fiziki imkanlı 19 şəxs tərəfindən toxunmuş 2807 cüt yun corab və 214 ədəd yun şərf hərbi hissələrə təhvil verilmiş, həmçinin sağlamlıq imkanları məhdud şəxslər arasında voleybol üzrə yoldaşlıq görüşü keçirilmişdir.

*Muxtar respublikada sosial-iqtisadi sahədə dinamik inkişafın təmin olunması bundan sonra da məhdud fiziki imkanlı şəxslərin rifahının daha da yaxşılaşmasına imkan verəcəkdir.*

**Naxçıvan Muxtar Respublikası**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyinin mətbuat xidməti**

*Ümummilli liderimiz Heydər Əliyev təhsilə, bu strateji sahənin inkişafına xüsusi əhəmiyyət verərək deyirdi: **“Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir”.** Bu qənaəti muxtar respublikanın təhsil işçiləri dərindən dərk edir, təhsilin inkişafı məqsədilə imzalanmış dövlət proqramlarından, digər normativ-hüquqi sənədlərdən irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsinə çalışırlar. Bu gün hərtərəfli dövlət qayğısının ifadəsidir ki, məktəblərin kompüterlərlə, elektron lövhələrlə, müasir avadanlıqlarla təminatı öz müsbət həllini tapıb. Göstərilən diqqət və qayğı sayəsində milli təhsilimizin inkişafı üçün hüquqi baza ilə yanaşı, təlim-tərbiyə müəssisələrinin maddi-texniki bazasının da yenidən qurulmasına xüsusi önəm verilib.*

*Təhsil millətin gələcəyidir*

# Ötən tədris ili uğurları ilə yadda qalıb

## *Cari tədris ilində göstəricilər daha yüksək olacaq*



Culfa Rayon Təhsil Şöbəsi və onun əhatə etdiyi təhsil müəssisələri də işlərini bu istiqamətdə qurublar. Bunun da nəticəsində təhsilin məzmunu yenilənib, keyfiyyəti yüksəlib, təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilib.

Son illər müasir tələblərə cavab verən 22 yeni məktəb binası, 5 məktəbdənkənar təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilib. Ötən tədris ilində Saltaq kəndində 306, Gülüstan kəndində 156 yerlik məktəb binaları öz qapılarını müəllim və şagirdlərin üzünə açıb. Xanəgah kənd tam orta məktəbi isə əsaslı təmir edilib. Hazırda Dizə kəndində 216 şagird yerlik məktəb binasında son tamamlama işləri aparılır.

Rayonun ümumtəhsil məktəblərinə 74 ədəd elektron lövhə, 441 ədəd kompüter dəsti, 21 ədəd printer verilərək 36 kompüter otağı yaradılıb, kompüterlərin böyük əksəriyyəti internet şəbəkəsinə qoşulub. Bu, şagirdlərin informasiya-kommunikasiya texnologiyalarının sirlərinə yiyələnməsində və onlardan istifadəsində mühüm rol oynayır. Elektron tədris sisteminin tətbiq edilməsi mütərəqqi təhsil metodlarından istifadəyə və dərslərin interaktiv formada keçilməsinə imkan verir.

Qazanılan uğurları ali məktəblərə qəbulun nəticələrindən də görmək olar. XI sinfi bitirən 373 məzundan 257 nəfəri müxtəlif ixtisas qrupları üzrə ali məktəblərə qəbul olmaq üçün sənəd verib. Ali məktəblərə qəbul imtahanının I mərhələsində 129 məzun müəyyən edilmiş balı keçib, 19 nəfər isə 500-700 arasında bal toplayıb. Onlardan Yaycı kənd 1 nömrəli tam orta məktəbin şagirdi Əli Əsgərov I ixtisas qrupu üzrə 690, Yaycı kənd 2 nömrəli tam orta məktəbin şagirdi Novruz Nəcəfli IV ixtisas qrupu üzrə 685 balla ali məktəb tələbəsi adını qazanıb.

Ali məktəblərə qəbul imtahanlarının II mərhələsində isə 32-si 500-700 intervalında bal toplamaqla, 165 abituriyent müxtəlif ixtisas qrupları üzrə ali məktəblərə qəbul olunub.

Tədris prosesinin ən mühüm sahələrindən biri fənn olimpiadalarının keçirilməsidir ki, bu da diqqətdə saxlanılıb. Bu məqsədlə rayonda “Olimpiada hazırlıq mərkəzi” yaradılıb. Mərkəzə təcrübəli müəllimlər cəlb ediliblər.

Ümumtəhsil məktəblərinin VII-XI sinif şagirdləri arasında Azərbaycan dili, xarici dil, fizika, kimya, biologiya fənləri üzrə keçirilən olimpiadanın muxtar respublika mərhələsində rayonun ümumtəhsil məktəblərindən 11 nəfər 4 fənn üzrə I-III yerləri tutub.

2016-2017-ci tədris ilində III-VIII siniflər üzrə 9, IX-XI siniflər üzrə 8 test-sınaq imtahanı keçirilib. Sınaq imtahanlarının nəticələri məktəb rəhbərlərinin, valideynlərin iştirakı ilə müzakirə edilib, zəif nəticə göstərən şagirdlərin fənn müəllimlərinə qarşı tələbkarlığı artırılıb, həmin şagirdlər əlavə məşğələlərə cəlb olunublar.

Tədrisin səviyyəsinin yüksəldilməsində məktəbdənkənar və sinifdənxaric tədbirlər məktəb işinin əsasını təşkil edir. Bunu dərindən dərk edən pedaqoji kollektivlər təlim prosesində verilmiş biliklərin daha da zənginləşdirilməsinə nail olmaq üçün belə tədbirlərin keçirilməsinə ciddi önəm verirlər. Xüsusilə də əlamətdar və tarixi günlər münasibətilə təşkil olunan tədbirlərdə şagirdlərin həm də kollektivçilik ruhunda tərbiyəsi ön plana çəkilir.

Ötən dərs ilində rayonun bütün məktəblərində ümummilli liderimiz Heydər Əliyevin doğum və anım günləri yüksək səviyyədə qeyd olunub, sərgilər təşkil edilib, şeir, inşa, rəsm müsabiqələri keçirilib, bu müsabiqələrdə fərqlənən şagirdlər mükafatlandırılıblar.

Müxtəlif idman yarışlarına cəlb edilən məktəblilər onlara göstərilən etimadı doğruldublar. Şagirdlərin dünyagörüşünün zənginləşdirilməsi, milli kökə qayıdış, onların nitq mədəniyyətinin formalaşdırılması, mütaliəyə marağın gücləndirilməsi məqsədilə məktəb kitabxanalarında oxunması zəruri olan kitablardan ibarət sərgilərin təşkili, kitabların müzakirəsi də həyata keçirilən tədbirlər sırasındadır.

Rayonun ümumtəhsil məktəblərində öz işini günün tələbləri səviyyəsində quran müəllimlərin əməyi dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilir. Onlardan 6-sı Azərbaycan Respublikasının, 8-i Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimidir. 6 müəllim “Tərəqqi” medalı ilə təltif olunub. 5 müəllim “İlin müəllimi” müsabiqəsinin qalibidir.

Rayonun pedaqoji kollektivləri ötən dərs ilində qazanılan uğurlarla kifayətlənmir, yeni dərs ilində daha yüksək nəticələrə nail olmaq üçün səy və bacarıqlarını əsirgəmirlər. Bunun üçün məktəblərdə yaradılmış hərtərəfli şərait yetərincədir. Onu da qeyd edək ki, cari tədris ilində rayonun ucqar dağ və sərhəd kəndlərində fəaliyyət göstərən məktəblərə təhsil yarmarkasından 34 gənc müəllim göndərilib. Onlar çalışdıqları Milax, Əlincə, Əbrəqunus, Teyvaz və digər ucqar kənd tam orta məktəblərində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə səy göstərir, yaşlı müəllimlərin təcrübəsindən yararlanırlar.

*Rayonun təhsil işçiləri əsl vətənpərvər, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq, yüksək intellektual səviyyəli məzunlar yetişdirmək üçün 2017-2018-ci tədris ilinə uğurla başlayıblar. İnanırıq ki, cari dərs ilinin yekunları rayonun təhsil tarixinə yeni nailiyyətlər yazacaq.*

**Muxtar MƏMMƏDOV**


Qarabağlar Türbə Kompleksinin bərpasından görüntü

*Tarixi yaşadanları tarix də yaşadacaqdır*

# Qarabağlar türbəsi

**Bu qədim torpağın hər guşəsində**
**Göylərə ucalan bir abidəm var.**
**Bu sənət incisi, daş kitabələr**
**Keçmişdən bu günə qalıb yadigar.**

**Qarşımda ucalır daha bir türbə,**
**Elimin, obamın nəğməsidir o.**
**Böyük memar Əhməd Naxçıvaninin**
**Vətənə, xalqına töhfəsidir o.**

**Sinəsində neçə əsrin, yüz ilin**
**Solmayan əbədi naxışları var.**
**Elxani hökmdarı Hülakü xanın**
**Xanımı Qutinin baxışları var.**

**Qarabağlar türbəsi, Qoşa minarəm,**
**Onların hər biri bir salnamədir.**
**Köksündə bərq vuran yaşıl kaşılar**
**Tarixə yazılan bir kitabədir.**

**Bu daş poemalar mənim kimliyim,**
**Milli iftixarım, həm qürurumdur.**
**Bu daş poemalar mənim tarixim,**
**Milli varlığımdır, milli ruhumdur.**

**Durmuşam üz-üzə dərdləşirəm mən,**
**Başının üstündə küləklər əsib.**
**Adlayıb üstündən çox qərinələr,**
**Yolunu qar, boran, duman, çən kəsib.**

**Az qalıb itirsin möhtəşəmliyin,**
**Az qalıb itirsin əzəmətini.**
**Sonda köməyinə EL OĞLU gəlib,**
**Özünə qaytarıb şan-şöhrətini.**

**İndi sevincinin yoxdur hüdudu,**
**Söyləyir, yenidən doğulub bu gün.**
**Unudub keçmişin acılarını,**
**Çıxarıb qəlbindən atıb büsbütün.**

**Qarabağlar türbəsi, Qoşa minarəm,**
**Bu gündən yeni bir həyat yaşayır.**
**Yazıb sinəsinə Vətən nəğməsin,**
**Keçmişimi gələcəyə daşıyır.**

**Rövşən HÜSEYNOV**

*Etnoqrafiyamız*

## Təndir-ocaqla bağlı adət və inamlar

***Odun kəşf olunması insanların həyatında böyük bir dönüş yaratdı. Bunun əhəmiyyətini dərk edən insanlar, oddan səmərəli istifadə etmək üçün düşünüb müxtəlif qurğular düzəltdilər. Bunlardan biri də təndir idi. Xalq arasında təndir-ocaqla bağlı çoxlu inamlar, atalar sözləri, məsəllər, alqış və hətta qarğışlar da yarandı.***

"Ocağından sac əskik olmasın", "Evindən un-urvan əskik olmasın", "Közün közərsin, külə qalansın", "Təndirin boş qalsın", "Sac üzünə həsrət qalasan" və sair bu kimi deyimlər od-ocaqla bağlıdır.

Çörək, təndir, dəyirman xeyir-bərəkət rəmzi olub və xalqımızın inam yerinə çevrilmişdir. Çörək bişirmək üçün müxtəlif üsullardan (təndirdə, metal və ya gil sacda, qızdırılmış daşlar üzərində, ocaq külündə və sair) istifadə olunur. Bu üsullardan çörəyin təndirdə bişirilməsi daha əlverişli hesab edilir. Təndirdə müxtəlif çörək növləri, lavaş, çırpma, kömbə, qalın (dəstana), bişirilsə də, yerdə qoyulan təndirlər, əsasən, lavaş bişirmək üçündür.


Rəssam Şamil Qazıyev "Lavaş yapanlar", 1977-ci il

Naxçıvan ərazisində çox qədim zamanlardan yeraltı təndirlərdən istifadə edilmiş, lavaş bişirilmişdir. Bir çox antik dövr abidələrində – Nəcəfəlidizədə (Babək rayonu), Köhnə Kənd Yerində (Qızıl Qışlaq, Şahbuz rayonu), Fərhad arxı kəndində (Şərur rayonu) yerdə qurulmuş təndirlərə rastlanmışdır. Sac üzərində bişirilən yuxa, fətir Naxçıvan ərazisində az hallarda bişirilmişdir. Hətta müvəqqəti olaraq yaylağa köçən maldar ailələr yeraltı təndir düzəltmişlər. Çünki təndirdə bişirilən lavaş yaxşı bişib quruduğu üçün uzun müddət xarab olmur.

Bu gün mədəni inkişafın nəticəsidir ki, lavaş sexləri ailələrdə çörək bişirilməsini, çörəkbişirmə ilə bağlı adət və inancları qismən unutdurub. İndi urfa, ərsin, xəmrə, təknə, rəfətə (əppəkyapan) və sair sözlər yavaş-yavaş yaddaşlardan silinir.

Əvvəllər hər bir ailənin özünün təndiri olardı. Təndiri qurmaq üçün çala qazılardı. Çala, təxminən, 1,5-1,8 metr dərinlikdə, diametri 1,5-2 metr olardı. Təndiri qoymaq üçün palçıq hazırlanardı. Palçıq xüsusi seçilmiş torpaqdan yoğurular, əlavə olaraq qırmızı torpaq, qum əlavə edilərdi. Palçıq quruyanda və bişiriləndə çatlamasın deyə keçi qəzili doğranıb qatılardı. Palçıq ən azı 10 gün ərzində hər gün qarışdırılıb çevrilərdi ki, yetişsin.

Təndir üçün torpaq təmiz yerdən götürülərdi. İnama görə, pak olmayan adam təndir qoymaz, onun palçığını ayaqlamazdı. Təndiri tək qoymağın düşər-düşməzi olduğundan, onun yanında bala (kiçik) təndir, heç olmasa ocaq qurulardı. Təndiri bu işdə səriştəsi olan adamlar qoyardı (düzəldərdi). "Bad" adlanan hissələrdən istifadə edilərdi. Bad hissə-hissə qoyulardı. Palçıq 8-10 santimetr qalınlığında və həmin hündürlükdə 50-60 santimetr uzunluğunda, dördkünc formada hazırlanar, üst-üstə qoyulub dairəvi şəkildə hörülərdi. Gün ərzində 30-40 santimetrdən artıq hörülməz, ya da bir neçə saatdan sonra əlavə edilərdi. Beləliklə, bir təndirin hörülməsi 3-4 gün çəkərdi. Təndir küpə formasında olub, ortada genişlənər, ağız hissədə isə yığılardı. Üst-üstə qoyulan laylar barmaqla sığanıb, bərkidilər, şüşə qabla döyəclənərdi. Təndirin dib hissəsindən küflə qoyular, bu boru maili formada təndirdən 1-1,5 metr aralı torpağın səthinə çıxardı. Küflə təndirə hava keçməsi üçün qoyulardı. Badın arxasında qalan boş yerə çay daşı, kül, bişmiş kərpic ovuğu doldurardılar. Buna təndirin arxası deyərdilər. Arxalı təndir istini yaxşı saxlayır.

Təndirlər, adətən, 4-6 çörək tutardı. Təndir qoyulduqdan 3 gün sonra təndirə "qara" salardılar. Buna "tüstü qoymaq" da deyərdilər. 7-10 gün ərzində təndir, tədricən, quruyar, bişib bərkiyərdi. Sonra təndir gur yandırılıb ağardılardı. Adətə görə, bir heyvan ciyəri, ya dalağı təndirdə kabab edilərdi. İnanclara görə, onda təndir ciyərli olub çox çörək çıxarardı. Bəzi yerlərdə külü, unu və duzu, bir-birinə qatıb təndirin badına sürtərdilər (bəzən evlərin sobasının kirəmitdən çıxan hissəsinə su buraxmasın deyə küllə duzu qatıb palçıq yoğurardılar ki, istiliyə dözümlü olsun).

Çörək (lavaş) bişirilməsi ağır iş olduğu üçün bu iş iməcilik yolu ilə həyata keçirilərdi. Yapanla birlikdə 4-6 nəfər iştirak edərdi.

Xəmir yoğurmaq üçün xəmrədən istifadə edilərdi. Acımış xəmirdən bir parça kəsilib qurudulardı. Növbəti dəfə çörək bişirəndə suda isladılıb xəmirə qatılardı. Çörək bişirilməsi xəmrənin hazırlanmasından başlandığı üçün birinə qonaq gəlib artıq qaldıqda: "Filankəsi acı xəmrədən kəsərlər" ifadəsini işlədirlər.

İməciliyə nə qədər adam toplansa da, ən çox zəhmət ev sahibinin üzərinə düşərdi. Xəmiri yoğurmaq, kündələmək, təndiri əvvəlcədən qalayıb-yandırmaq və sair.

Təndir yanıb ağarmalıdır. Buna "təndir oturuşub", – deyirlər. Təndir isti olduğu üçün bəzən ilk çörəklər yanıb qaralardı. Bu cür çörəklərə "tətəriz" deyirlər. Təndirin belə vaxtına təndirin "itisi" deyirlər. Bu zaman çörəklər tez-tez bişdiyi üçün çalışardılar ki, təndir boş qalmasın. Çörək açanlar çatdıra bilməyəndə, imkan daxilində əlavə kömək istəyib deyərdilər ki, "gəl bu təndirin itisinə kömək et". Bir neçə saatdan sonra təndirin istisi azaldığı üçün yenidən yandırılardı. Bu fasiləyə "ara təndiri" deyirlər. Adətən, ara təndirindən sonra təndirin itisinə "yarım əppək" və "çıppa" (çırpma) yapılardı. Yarım əppək az yayılan, qalın çörəkdir. Çıppa isə iki kündə birləşdirilib qalın çörək formasında yapılardı. Çörək açanlar bunları isti-isti, pendir, şor, soyutma kartofla yeyərdilər.

Adətən, çörək açmanın sonunda təndirə "dəstana" (qalın çörək) yapılardı. Xəmiri yağ, südlə yoğurulan dəstananın üzərinə yumurta sarısı vurular, bəzən isə küncüd toxumu səpilərdi. Çörək və dəstananın təndirə düşənləri qırışıb yığışar, odda yanardı. Buna "küt" deyərlər. Uşaqları aldadırdılar ki, küt yeyən pul tapacaqdır.

Adətə görə, təzə bişirilən çörəyin iyi vuran hər kəsə, qonşulara, yoldan ötənlərə təzə çörək verilərdi. Eləcə də, iməciliyə gələn qadınlara bir neçə çörək verilərdi. İnanca görə, təzə çörək yeməyənin imanı olmur.

Çörək bişirilən zaman işlənən alətlər bunlardır: unu ələmək üçün ələk, xəmir yoğurmaq üçün təknə (tabaq), xəmiri kəsmək üçün ərsin, yaymaq üçün duvaq və oxlov, təndirə düşən çörəkləri çıxarmaq üçün şiş, çörəyi təndirə yapmaq üçün rəfətə (əppəkyapan), təndirin odu öləziyəndə (qaralanda) deşmək üçün kösöv. Qalınları təndirdən çıxarmaq üçün qulplu tavadan istifadə edilir. Çörəyi açarkən sulanıb yapışanda səpilən una "urfa", lavaşı təndirə yapanda bada yapışsın deyə əllərini suya batırıb çörəyin arxasına vururlar. Bu suya "dəstov suyu" deyirlər.

Xalqımız çörəklə bağlı bir sıra adət və inamları günümüzə qədər qoruyub saxlayıb. Çörəyə laqeyd yanaşanın evində xeyir-bərəkət olmaz, – deyiblər.

Bu qədər zəhmətlə başa gələn çörəyə hörmətlə yanaşmalı, israfçılığa yol verməməliyik.

**Zaleh NOVRUZOV**

***Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin 2 nömrəli Təqaüdçülər Klubu təqaüdçülərin, ümumiyyətlə, şəhərin yaşlı sakinlərinin sevimli məkanlarından biridir.***

## Təqaüdçülər Klubunda konsert olub

Dekabrın 1-də həmin ünvanda Naxçıvan Musiqi Kollecinin "Buta" muğam ansamblının konserti olub.

Ansamblın ifasında muğam və təsniflər, xalq mahnıları ifa edilib. Samir İsmayılovun ifasında Rauf Hacıyevin "Azərbaycan" mahnısı təqaüdçülər tərəfindən alqışlarla qarşılanıb. Konsertdə "Sarı gəlin", "Qara qaşın vəsməsi" xalq və Azərbaycan bəstəkarlarının mahnıları səslənib. Müğənnini balabanda Sərxan Əliyev, kamançada Nurlan Nuriyev və başqa musiqiçilər müşayiət ediblər.

**Əli RZAYEV**

## Cüdoçumuz gümüş medal qazanıb

***Tovuz rayonunda yeniyetmələrin XI respublika oyunları çərçivəsində cüdo yarışlarına yekun vurulub.***



Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Cüdo Federasiyasının birgə təşkil etdiyi yarışda 34 klubdan 131 oğlan və 40 qız cüdoçu medallar uğrunda mübarizə aparıblar.

Keçirilən yarışda Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri də iştirak ediblər. Belə ki, 46 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan Fuad Əşrəfli final görüşünə kimi bütün rəqiblərinə qalib gəlib. Son görüşdə Qusar cüdoçusu Ərəbxan Ramazanova məğlub olan idmançımız yeniyetmələrin cüdo üzrə respublika oyunlarında gümüş medal qazanıb.

Sonda idmançımız diplom və medalla təltif olunub.

## İdmançılarımız "Əlillərin V Respublika İdman Oyunları"nda iştirak ediblər

Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin idman həyatına inteqrasiyası daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının mütəmadi olaraq müxtəlif idman növləri üzrə keçirdiyi yarışlarda bu qəbildən olan şəxslərin iştirakı onların idmana kütləvi cəlbinə şərait yaradır. Bakı şəhərində "Əlillərin V Respublika İdman Oyunları"nda Naxçıvan Muxtar Respublikasından şahmat, dama, nərd, stolüstü tennis və qol güləşi idman növləri üzrə sağlamlıq imkanları məhdud 5 həmyerlimizin iştirakı da bu çərçivədə həyata keçirilib.

Yarışın yekun nəticəsinə əsasən muxtar respublikanı təmsil edən paralimpiyaçılardan 3-ü mükafatçılar sırasında yerini alıb. Stolüstü tennis idman növündə İsgəndər Hüseynov, nərd idman növündə Nazim Süleymanov qalib adını qazanıblar. Dama idman növündə isə Təvəkkül Cəfərov ikinci olub.

Sonda qalib idmançılarımıza mükafatlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 979